# Azərbaycan ilə Surinam arasında ilk siyasi məsləhətləşmələr aparılıb



**Martın 3-5-də Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə Azərbaycan Respublikasının hökumət missiyası Surinam Respublikasında səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, missiyanın tərkibinə İqtisadiyyat, Energetika, Elm və Təhsil, Kənd Təsərrüfatı nazirlikləri, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) və "AzerGold" QSC nümayəndələri daxildir.

Səfər zamanı xarici işlər nazirinin müavini Elnur Məmmədov Surinamın xarici işlər, beynəlxalq biznes və beynəlxalq əməkdaşlıq naziri Albert Ramdin, nazir müavini xanım Miriyam Makkintoş ilə görüşüb.

Görüşlərdə Azərbaycanın COP29-a sədrliyi çərçivəsində ötən ilin noyabr ayında ölkəmizə səfər etmiş Surinam Prezidenti Çan Santoxi ilə Prezident İlham Əliyevin görüşünun nəticəsi olaraq Surinama Azərbaycan hökumətinin missiyasının gəlişi qarşı tərəfdən yüksək qiymətləndirilib və hər iki tərəf üçün maraq doğuran məsələlər, o cümlədən yüksəksəviyyəli səfərlərin mübadiləsi, sərmayə, nəqliyyat, "yaşıl enerji", humanitar, elm və təhsil, mədəniyyət və digər mümkün sahələrdə əməkdaşlıq imkanları müzakirə edilib.

Səfər çərçivəsində Azərbaycan Xarici İşlər Nazirliyi ilə Surinam xarici işlər, beynəlxalq biznes və beynəlxalq əməkdaşlıq nazirliyi arasında birinci siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfdən isə Surinamın xarici işlər, beynəlxalq biznes və beynəlxalq əməkdaşlıq nazirinin müavini Miriyam Makkintoş rəhbərlik edib. Siyasi məsləhətləşmələr zamanı ikitətəfli və çoxtərəfli siyasi əlaqələrin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

Səfər çərçivəsində nazir müavini Elnur Məmmədov Azərbaycanın xarici siyasət prioritetləri mövzusunda Surinamın Xarici İşlər Nazirliyində təqdimatla çıxış edib.

Təqdimatdan sonra Elnur Məmmədov Surinamın "CDS" dövlət media agentliyinə müsahibə verib.

Hökumət missiyasının üzvləri üçün Surinamın müvafiq dövlət qurumlarının yüksəkvəzifəli rəsmiləri ilə görüşləri təşkil edilib. Müxtəlif sahələrdə investisiya imkanları barədə ətraflı təqdimatlar edilib, əməkdaşlıq perspektivləri haqqında məzmunlu müzakirələr aparılıb.

Səfər zamanı Azərbaycanın hökumət missiyasının üzvləri "Staatsoile" dövlət neft şirkətində görüş keçirib, "Tout Lui Fo" neft emalı zavoduna tanışlıq turu təşkil edilib.

Azərbaycan.- 2024.- 6 mart (№ 50).- S.4.